# Tariximizin min ilini geridə qoyan ibadətgah

**Babalarımızın min illər əvvəl izlərini qoyub getdikləri tarixi abidələr mədəni və dini kimliyimizin şəxsiyyət vəsiqəsidir. Haqqında bəhs etdiyimiz Şamaxı Cümə məscidi - Azərbaycan Respublikasının ərazisində Cənubi Qafqazda Dərbənd Cümə məscidindən (734-cü ildə inşa edilib) sonra inşa edilmiş ən qədim məsciddir.**

XIX əsrə kimi tarixi mənbələrdə Şamaxı Cümə məscidinin inşası haqqında məlumatlar yox idi. Belə izah edilirdi ki, bu tarixi abidənin inşası qrafik və mətn sənədlərinin az olduğu erkən Orta əsrlərə gedib çıxır. Lakin Şamaxının və Dərbəndin tarixini öyrənən tədqiqatçılar araşdırmalarında bir qayda olaraq Cümə məscidinin adını da qeyd ediblər.

Araşdırmaçılar belə qənaətə gəliblər ki, Azərbaycan ərazisində ilk dəfə məscid 743-744-cü illərdə xəlifə Validin qardaşı VIII əsrdə Şirvan və Dağıstanı fəth edərək bu ərazilərdə islamı yaymış Əbu Müslümün hakimiyyəti dövründə inşa olunub. Ehtimal ki, məscidin strukturunun formalaşması Orta əsr Azərbaycanında (XII-XIII əsrlər) mədəniyyət və incəsənətin çiçəklənməsi dövründə tamamlanıb. Məşhur memar Şamil Fətullayev-Fiqarovun Şamaxı Cümə məscidi haqqında qeydlərində oxuyuruq: "Azərbaycan memarlıq tarixində Şamaxı Cümə məscidinin əhəmiyyəti o qədər böyükdür ki, onun memarlıq, arxeoloji və elmi-tədqiqat baxımından diqqətlə öyrənilməsi bu qədim qurğunun tarixi haqqında dolğun təsəvvür yaratmağa imkan verir və həmçinin Şirvan-Abşeron memarlıq məktəbinin bir çox aspektlərini işıqlandırır".

1902-ci ildə baş verən zəlzələ Şamaxıda ciddi dağıntılara səbəb olur. Şəhərə xüsusi komissiya tərəfindən baxış keçirilməsi zamanı Tiflisdən gələn geoloq şahzadə Şalkuli Qacar daş kitabə üzərinə yazılmış yazıda Cümə məscidinin müsəlman tarixi ilə 123-cü ildə, Miladi təqvimlə 743-cü ildə inşa edilməsini ortaya çıxarmışdı.

Şamaxı Cümə məscidi tarixin ən amansız qətliamlarına şahidlik etmiş qədim abidədir. Səlcuqların dövründə yaşamış tarixçi İmadəddin İsfahaninin məlumatına görə, Şirvanşahlar 1123-cü ildən başlayaraq, gürcülərin talançı basqınlarından müdafiə məqsədilə, yardım üçün səlcuqlu Sultan Mahmuda (1118-1131) müraciət edirlər. O yazır ki, həmin vaxt onlar Şamaxı şəhərinə hücum edərək "məscidi dağıtmışlar, minarəni uçurmuşlar və şəhərdə quldurluq edirmişlər".

Cümə məscidi ilk dəfə XII əsrin sonunda rekonstruksiya olunub. Məscidin ikinci rekonstruksiyası XVII əsrdə Səfəvilərin dövrünə təsadüf edir. 1656-cı ildə Şamaxıda olan Övliya Çələbi bu məscidi vilayətin ən böyük ibadət ocaqlarından biri adlandırır. 1859-cu il Şamaxı zəlzələsindən sonra şəhərin məhəllələrinin, o cümlədən memarlıq abidələrinin bərpasına Qasım bəy Hacıbababəyov rəhbərlik edir.

XX əsrdə Cümə məscidi Şamaxının planlaşdırılmasında və tikintisində tarixi abidə kimi Qafqazın ali hakimiyyət orqanlarının diqqət mərkəzində olub. Bunu general-leytenant Yermolovun knyaz Mədətova yazdığı məktub da təsdiq edir.

1903-cü ilin oktyabrında Cümə məscidinin bərpası üçün ianə toplamaq üzrə komitə təşkil olunur. Komitə qarşısında əsrlər boyu Şirvanın mövcudluğunun və böyüklüyünün simvolu olan yarıdağılmış məscidin qorunması kimi məsuliyyətli vəzifə dururdu.

Məscidin inşası üzrə komitə Şamaxıda doğulmuş mülki mühəndis Zivər bəy Əhmədbəyova Cümə məscidinin yeni binası üçün layihə hazırlamaq tapşırılır. O, həm də dağıdılmış binanın cizgilərini saxlamalı və qismən də olsa binanın qalan hissələrindən istifadə etməli idi. Zivər bəy inşaat işlərinə başlayır, kürsülük daşı qoyulur, mərkəzi mehrabın arxa divarı qismən tikilir. Lakin yan divarların inşası davam edərkən memar və komitə arasında narazılıq baş verir. İnşaat işləri dayandırılır və Əhmədbəyov tikintini tərk edir. Komitə məscidin layihələşdirilməsini davam etdirmək xahişi ilə İosif Ploşkoya müraciət edir. Ploşko Zivər bəy Əhmədbəyovun plan quruluşunu saxlayaraq özünün memarlıq həllinin variantını təklif edir.

Müxtəlif Avropa və tarixi üslublardan istifadə edərək layihələr yaratmağa adət etmiş İ.Ploşko üçün bu, adi bina deyildi. Məscidin layihəsini tərtib etməzdən əvvəl o, bir daha Bakı və Şamaxının tikililəri ilə tanış olmağa, Şirvanşahlar Saray Kompleksinə, Bakı qalası minarələrinə diqqət yetirir. İ.Ploşko 1909-cu ildə məscidin inşası üzrə komitəyə ustalıqla hazırlanmış layihə təqdim edir. Layihədə dini tikili islamın memarlıq obrazlarında öz bədii təcəssümünü tapmışdı.

Bakıda Mart soyqırımının başladığı dövrdə Şamaxıda Stepan Lalayevin rəhbərliyi ilə "Daşnaksütyun" partiyası nümayəndələri dinc müsəlman əhaliyə qarşı qırğına başlayır və bu hadisələr zamanı törədilmiş yanğında tikintisi hələ tamamlanmamış məscid ciddi zədələnir. Bakıda yaşayan şamaxılıların general Tomsona verdikləri məlumata görə, şəhər talan edilmiş, daha sonra isə yandırılmış, heç bir məscid salamat saxlanmamışdır.



2009-cu ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən tarix-memarlıq abidəsi kimi qeydiyyata alınmış Şamaxı Cümə məscidinin bərpa olunması haqqında sərəncam imzalanıb. Sərəncama əsasən, 2010-cu ildə məscid kompleksi ərazisində bərpa işlərinə start verilib. Bərpa işləri Azərbaycanın "A+A Kampaniyalar Qrupu" tərəfindən həyata keçirilib. Bərpa işləri görülərkən divar yazılarının bərpası üçün İrandan xüsusi mütəxəssislər dəvət olunub. Bərpa zamanı İosif Ploşkonun 1909-cu ildə işlədiyi restavrasiya layihəsi əsas götürülərək 1918-ci ildə törədilmiş yanğından sonra məscidin qorunmuş bütün hissələri saxlanılaraq orqanik şəkildə kompleksə əlavə edilib. Bərpa işləri zamanı məscidin həyətində aşkarlanmış mədrəsə binası, hücrələrin və qəbir abidələrinin ilkin görünüşü saxlanılıb. Ümumilikdə restavrasiya prosesi zamanı Şirvan-Abşeron memarlıq məktəbinin inşaat ənənələrinin qorunmasına diqqət yetirilib.

Restavrasiya zamanı məscidin ortada yerləşən böyük və kənarlarda yerləşən kiçik günbəzləri yenidən qurulmuş və nəfis naxışlarla bəzədilmişdir. Məscidin orta zalı milli interyer üslubunda bərpa edilmişdir və hazırda bu zalda 1500 nəfər eyni vaxtda namaz qıla bilir. Kompleks ərazisində iki hovuz və altı qalereya inşa edilmişdir. Yeni inşa edilmiş ikimərtəbəli inzibati binanın sahəsi 804 kvadratmetrdir. Məscid kompleksi ərazisində 250 nəfər üçün nəzərdə tutulmuş 520 kvadratmetr ərazisi olan mərasim zalı və mətbəx də fəaliyyət göstərir. Kompleksə zəngin invertara malik kitabxana da daxildir.

17 may 2013-cü ildə əsaslı bərpadan sonra Şamaxı Cümə məscidi yenidən istifadəyə verilib. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, bütün Qafqazın müftisi, müsəlman dövlətlərinin ölkəmizdəki səfirləri və digər dinlərin nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, məscid Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-24 avqust (№178).- S.10.